

SABİR YUSİFOGLU







## MƏNİM AD GÜNÜMƏ QAR YAĞIR YENƏ

Nə özün gəlirsən, nə məktubların,
səninlə gedibmi yox olan yollar?!
Bəlkə Yer üzündən qırılıb düşüb
bizim aramıza yıxılan yollar?!

Mənim ad günümə qar yağır yenə,
düşüb pəncərədən qar dənəsiylə
Fevral gecəsinə yıxılır kölgən.
Evdə olanlardan çəkinib bir az,
isti xəyallara sıxılır kölgən.

Yığıram ovcuma qarlı kölgəni,
ovcumda kölgəndən nəsə qalacaq?!
Əllərim isidər bəlkə kölgəni,
kölgən əllərimdə təzə qalacaq.

* * *

Döysəm pəncərəni, döysəm qapını,
döysəm ürəyini bu gecə vaxtı
Günah yiyəsidi mələkələr də,
bəlkə də üzünə baxmaq günahdı.

Bu sevgi, bu tale, bu dərd!
Nə olsun?!
Uçan küləklərə çatsaq da belə,
gedib mələklərə yetsək də belə
qovuşa bilmərik bir-birimizə.

Qaldığım illərin yan-yörəsindən
Seyrəlib çəkildim duman çən kimi
Tək sənin yadına düşmürəm deyə
Yadımdan çıxıram çıxan can kimi

Bir daha üz-üzə gəlməsək də biz,
yollar izimizi barışdıracaq.
Xınalı əllərin, xanım əllərin
gündüzlər qızının qara telini,
gecələr yuxumu qarışdıracaq.

Dünyada Sevgidən doğulanlar az,
Bəlkə də Sevgidən ölən olmayıb...
İlahi Sevginin nə olduğunu,
Tanrıdan savayı bilən olmayıb.

Qara gecələrin qara üzünə
ağı deyə-deyə ağ çəkəcəksən.
Dünya unudacaq hər ikimizi,
bir vaxt adımız da dəbdən düşəcək.
Yollar dəyişəcək yerişimizi,
baxıb şəkillərə ah çəkəcəksən!

Qatlayıb qırağa atdım keçmişi,
bir sən bilən olsun, bir Allah, xanım.
Sənin taleyinə sevgi yazılıb,
Yazılsın adıma bu günah xanım.

## ÖMÜRDƏN GÜNLƏR DÜŞÜB...

Bu illərin üstündən
kim keçib, -
daşlıq qalıb.
Ömürdən günlər düşüb,
arada boşluq qalıb.

Biz olmadıq bu bizlə,
dənlədi təpəgözlər.
Dildə utanan sözlər,
sözdə "qardaşlıq" qalıb.

Ümid həftəlik, aylıq,
yenə o tay, bu tayıq.
Nə ayaqda ayaqlıq,
nə başda başlıq qalıb.

Dur torpaqla üstümü,
görməsinlər tüstümü.
Mənim balam, pis günün
ömrü bu qışlıq qalıb.

## O DAĞIN DÖŞÜNDƏ

Yıxılıb dincini alır
göylər o dağın döşündə.
Çəkib bulud karvanını
əylər o dağın döşündə.

Vaxtsız yuxu tutan igid,
gül-çiçəyə batan igid.
Savalanda yatan igid
Neylər o dağın döşündə?!

Bir kitab kimi oxunsam,
oxu sonacan, oğulsan!..
Burda qəlbimə toxunsan, -
Göynər o dağın döşündə

Dili lal, gözləri açıq,
ümid qönçələri açıb.
Hamıdan gizlətdiyimi
ürəyim yuxumdan qaçıb
Söylər o dağın döşündə.

Yıxılıb dincini alır
Göylər o dağın döşündə.
Qəlbim burda yaralanıb,
Göynər o dağın döşündə.

## SUALTI QAYIĞA BƏNZƏYİR QADIN

Qəlbindən, könlündən nə keçdiyini,
Arzu-istəyini bilmək istəyir.
Gəzib ürəyimin künc-bucağını
Ona yad nə varsa silmək istəyir.

Sualtı qayığa bənzəyir qadın, -
Gah suyun altında, gah da üstündə.
Hara getdiyini bilə bilməzsən,
Eyni okeanda qoşa üzsən də.

Arzusu, istəyi ölçüyə gəlməz
Qəlbə lövbər atdı, - dünyadan ağır.
Ən dayaz sularda batıb gedərsən,
Bacara bilməsən kapitanlığı.

## 8 MART GÜNÜ

Bu adam çaşdırıb əzrayılı da,
Bir canın üstündə yüz sifətilə.
Güzgüyə tüpürüb özündən gedər -
Rastlaşıb eləsə öz sifətilə.

Yorulan ümidlər axır ki dindi,
Bu xəzəl arzular, Allah, kimindi?!
Təqvimin qırmızı günləri indi
Bizi qarşılayır boz sifətilə.

Yaman tez yıxıldın Adəm deyənə,
Ay səni, damarı boş Həvva nənə.
Belə dünyadansa kaş Həvva nənə,
Qarıyıb qalaydın qız sifətilə.

## BU DƏNİZİ...

Bu dənizi boşaldıb,
görüm dibində nə var?
Sevgiyə, dərdə aid
balıq dilində nə var?

Bu dənizi aparım
fevralın on dördünə...
İl boyu qarışdırım
batan yurdun dərdinə.

Uzadıb qum üstünə,
kürəyin günə verim.
Bu dənizi qaldırıb
dumana, çənə verim.

O qızın ayaq izin
qızıl qumdan ələyim.
...Nə deyirəm danışmır,
bu dənizi neyləyim?!

Oğurlayıb aparsam
Dibində gizlədərmi
Marian çökəkliyi?
Çəpərlər qırış-qırış
Sifəti cızıq-cızıq
Qalmayıb göyçəkliyi.

Gözü dolu buludun
payız dilində nə var?
Bu dənizi boşaldıb,
görüm dibində nə var.

## DAĞ TƏRƏFDƏN QIŞ KEÇİB

Gətirdiyi bar əyib
ağacların qəddini.
Dağ tərəfdən qış keçib
Payızın sərhəddini

Havalı adamlardan
baş alıb qaçır külək.
Yarpaqların başına
min oyun açır külək.

Yenə baş saxlamağa
yaman qarışıb başlar...
Çiçək mövsümü bitib
şeir mövsümü başlar.

Payızın içindəyəm,
içimdə yaz həsrəti.
Ömür payız şərqisi,
Sarı yarpaq hər sətri.

Məni də birnəfəsə
çəkib aparır payız.
Tək darıxmasın deyə,
sarı yarpaqlarına
Büküb aparır payız....

## QARĞALAR SEVİNİR

Qar yağır qışın gününə,
Qara, qarğalar sevinir.
Çoxunun səsin batırıb
Qara qarğalar sevinir.

Ağ üstünə qara düşüb,
Başlar hardan-hara düşüb.
Tor atan da tora düşüb
"Urra!"... qarğalar sevinir.

Bilmədik yıxan kim idi,
vurulub çıxan kim idi.
"hə, görək indi kimindi
sıra?" qarğalar sevinir.

Dünyanın çarxı hərlənə,
kim gülə, kim qəhərlənə.
Unut e... lap cəhənnəmə -
gora sevinir qarğalar.

## ALDADIB DƏRD ADLI BİR AXMAĞI DA

Atdınız - gəmidən artıq yük kimi,
Elə bildiniz ki, batıb gedəcəm.
Sizə səsim çatar, əlim uzanmaz, -
Bir saman çöpündən tutub gedəcəm.

Unutdum təklikdən darıxmağı da,
O küncə, bu küncə vurnuxmağı da.
Aldadıb dərd adlı bir axmağı da,
Gördüm ki, vaxt-vədə çatıb, gedəcəm.

Yığıb, yığışdırıb dərdi-sərimi,
Bir qəmli sükuta verrəm yerimi.
Məni sevənləri, sevdiklərimi
Çevrilib baxmadan atıb gedəcəm...

## KÜLƏK SƏNİ APARACAQ

Nə yaman başlayıb külək,
külək səni aparacaq.
Küləkdən qaçsan da, çərxi -
fələk səni aparacaq.

Astar-üz oldun neçə yol,
arada bir dön insan ol.
Nə boydana olursan ol,
ələk səni bizi aparacaq

Nə ağlın elə dayazdı,
nə əlində xalın azdı,
bu oyunda uduzmazdın,
kələk səni aparacaq.

Qan uddurma haqq deyənə,
heç nə yoxdu haqqı yenə.
Şeytana uysan da yenə,
mələk səni aparacaq.

Ömür su - axır, kəsilir,
kimə nə çatdı, bəsidi.
...bu gələn qatar səsidi
görək səni aparacaq...

## O, DÜNYASINI TEZ DƏYİŞDİ...

Hamı əllini haqladı,
sən yenə də uşaq qaldın.
Bu qocalan dostlarına
qoşulmadın, uzaq qaldın.

Sən saf, dünya iki üzdü,
kimi sevdin dodaq büzdü.
Bir əlində sınıq güzgü,
bir əlində daraq qaldın.

Dünya ceviz, kim ki sıxıb,
eyni şeydi, - çürük çıxıb!
...dərdlərinə şərik çıxıb
əzrayilə qonaq qaldın.

## SƏNƏ AÇILAN QAPI

Yaşayıram günü, ayı,
bir də...
Səni görmək üçün.
Göydə bir olan ALLAHI,
Yerdə səni görmək üçün.

Şəklini, məktublarını
cırıb, yandırıb başqası.
Sənə uzanan qolları
bir ocaqda çör-çöp kimi
qırıb, yandırıb başqası.

"Bu eşq nə sirr, nə tilsimdi"
bu tilsimi qıra bilmir.
Ürəyimi gəzir, gəzir,
sənə açılan qapının
kodunu sındıra bilmir.

Gəzib səni tapsa birdən,
ən yaxın sirdaşın olar.
Səndəki ölmüş Sabiri
məni qurban verib alar...

## SON ÜMİD...

Günün altında uzanıb
yandı, qaraldı günlərim.
Olan-qalan ümidlərdən
xəbər dalınca göndərim.

...Son ümidim sağ-salamat
geri döndü kəşfiyyatdan
"İşıq gəlir" xəbərilə.
Qaçaqmalçılıq yoluyla
keçirtdim dərdi-sərimi
köhnə ildən təzə ilə...

Çapır ömrün düzənində,
zaman saxlamır atını.
Qoruyub saxlaya bildim
bir ümidin həyatını.

## DOSTLARA

Ağ kağıza yazmadı
qələm,
şeirlərimi.
Canımı dost-düşmənə
bölən şeirlərimi.

Dedim, gün vurar birdən,
çıxartmadım kölgədən.
İşıq üzü görmədən
ölən şeirlərimi.

Tək özümə demişəm,
ala-çiy də yemişəm.
Ac dərdimlə görüşə
gələn şeirlərimi.

Durub yükünü çəkdim,
bir az ipini çəkdim.
Başına ağıl əkdim
qalan şeirlərimin!..

